# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası ərazisində sudan istifadə və tullantı sularının axıdılması xidmətləri tariflərinin (qiymətlərinin) təsdiq edilməsi haqqında**

«Azərbaycan Respublikası ərazisində 2011-ci il 1 fevral tarixdən sudan istifadə və tullantı sularının axıdılmasının xidmətləri üzrə yeni tariflərin (qiymətlərin) təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Tarif (Qiymət) Şurasının 2011-ci il 31 yanvar tarixli 01 nömrəli qərarından irəli gələn vəzifələrin icrasının təmin edilməsi məqsdilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır**:

1. Naxçıvan Muxtar Respublikası ərazisində sudan istifadə və tullantı sularının axıdılması xidmətlərinin tarifləri (qiymətləri) bu qərarın əlavəsinə uyğun təsdiq edilsin.
2. Naxçıvan Muxtar Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi şəhər və rayon icra hakimiyyətləri ilə birlikdə bu qərardan irəli gələn məsələləri həll etsinlər.
3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 8 yanvar tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmiş «Sudan istifadə üzrə tariflər» və «Tullantı suların axıdılması xidməti üzrə tariflər» qüvvədən düşmüş hesab edilsin.
4. Bu qərar 2011-ci il fevralın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri**: **Ə.Baxşıyev**

05 fevral 2011-ci il

№ 20

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 05 fevral tarixli 20 nömrəli qərarı ilə təsdiq edilmişdir

# Naxçıvan Muxtar Respublikası ərazisində sudan istifadə və tullantı sularının axıdılması xidmətlərinin tarifləri (qiymətləri)

| № | Xidmətin növü | İstehlakçı qrup | Ölçü vahidi | Tariflər (ƏDV ilə, manatla) |
|---|---|---|---|---|
| I | Su təchizatı | 1. əhali | 1 $m^3$ | 0,25 |
| | | 2. digər sahələr | 1 $m^3$ | 1,0 |
| | | 3. sudan xammal kimi istifadə edənlər | 1 $m^3$ | 12,0 |
| II | Tullantı sularının axıdılması | 1. əhali | 1 $m^3$ | 0,06 |
| | | 2. digər sahələr | 1 $m^3$ | 0,30 |

**Qeyd**. Sayğac quraşdırılmamış mənzillərdə adambaşına su istehlakı norması 5$m^3$ müəyyən edilsin.